2019-cu ilin yanvar ayında muxtar respublikada nəqliyyat müəssisələri və avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 909,9 min ton yük, 6641,5 min sərnişin daşınmışdır. Yük və sərnişin daşınmasından bütövlükdə 3620 min manat gəlir əldə edilmişdir ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,9 faiz çoxdur.

Qeyri-dövlət sektorunda 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 1,3 faiz, sərnişin daşınması 1,6 faiz, yük və sərnişin daşınmasından əldə olunan gəlir isə 5,1 faiz artmışdır.